RSM Azerbaijan LLC

THE POWER OF BEING UNDERSTOOD

AUDIT | TAX | CONSULTING

# AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

31 dekabr 2020-ci il tarixində tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

RSM

RSM Azerbaijan

Demirchi Tower 16 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan

T +994(12) 480 4571
F +994(12) 480 4563

www.rsm.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Rəhbərliyi və Himayəçilik Şurasına:

***Rəy***

Biz Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra "Fond") 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2020-ci il tarixinə Fondun maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilır. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Fonddan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri, bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlər barədə ayrıca rəy vermirik.

*Banklarda yerləşdirilmiş depozitlər, ipoteka kreditləri və maliyyə icarəsi üzrə alınacaq vəsaitlər ilə bağlı GKZ ehtiyatları və satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu üzrə xalis realizə edilə bilən dəyər qiymətləndirməsi*

Maliyyə hesabatlarında 3, 6, 14, 16, 18 və 19 saylı Qeydlərə baxın.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

*Əsas audit məsələsi*

Qalıqların əhəmiyyətli olması (31 dekabr 2020-ci il tarixinə cəmi aktivlərin 83%-ni təşkil etmişdir) və dəyərsizləşmənin vaxtının və məbləğinin hesablanmasının mürəkkəbliyi ilə əlaqədar olaraq, banklarda yerləşdirilmiş depozitlər, ipoteka kreditləri və verilmiş avansların dəyərsizləşməsi, maliyyə icarəsi üzrə alınacaq vəsaitlər və satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu əsas audit məsələsi hesab edilir. Risk, dəyərsizləşmə məbləğinin yanlış qiymətləndirilməsi təhlükəsi ilə bağlıdır. Dəyərsizləşmə nəticəsində yarana biləcək itkilər üzrə ehtiyatlar, dəyərsizləşmənin obyektiv sübutunun mövcudluğunun müəyyən edilməsi və borcalanların maliyyə vəziyyəti və gələcək pul axınları barədə Fondun ehtimalları əsasında yaradılmalıdır.

*Bu məsələ ilə bağlı apardığımız audit prosedurları*

Biz öz audit prosedurlarımız çərçivəsində prosesləri və maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatların yaradılması üçün Fondun nəzarət sistemlərini dəyərləndirmişik. Biz həmçinin, Fond tərəfindən maliyyələşdirilmiş ipoteka kreditləri və digər maliyyə aktivləri üzrə əvvəlki dövrlərdə pul vəsaitlərinin dinamikası və digər amilləri nəzərə alaraq Fondun aktivlər üzrə yaradılmış ehtiyatlarını qiymətləndirmişik. Eyni zamanda, banklarda yerləşdirilmiş depozitlər üzrə yaradılmış ehtiyatları qiymətləndirmək məqsədi ilə mövcud ictimai məlumatlara əsaslanaraq bankların maliyyə vəziyyətini fərdi şəkildə nəzərdən keçirmişik. Əlavə olaraq, maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatların yaradılması üçün Fondun metodologiyasının adekvatlığını təhlil etmişik.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və Himayəçilik Şurasının Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Fondu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında ümumilikdə saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair əsaslandırılmış əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Əsaslandırılmış əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına (BAS-a) uyğun olaraq aparılmış auditin belə təhrifləri hər zaman aşkar edilməsinə zəmanət vermir.

Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud toplu olaraq, istifadəçilərin bu cur maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

- Fondun daxili nəzarətinin səmərəliliyinə dair rəy bildirməmək şərti ilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və Rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin Rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Fondun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğuna dair qənaətə gəldiyimiz halda, audit hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Fondun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin idarəetməyə məsul şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə bağlı bəyanat verir və həmin şəxsləri əsaslı şəkildə müstəqilliyimizə təsir etməsi güman edilə bilən bütün qarşılıqlı əlaqələr və digər məsələlər, habelə zəruri hallarda müvafiq ehtiyat tədbirləri barədə məlumatlandırırıq.

Biz idarəetməyə məsul şəxsləri məlumatlandırdığımız məsələlər arasından, cari dövrün maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik olmuş və bu səbəbdən, əsas audit məsələlərinə daxil edilən məsələləri müəyyən edirik. Məsələ barədə ictimaiyyətə açıqlamanın qanunvericilik və ya normativ aktlarla qadağan edilməsi halları və ya nadir hallarda bu məsələnin hesabatımızda açıqlanmasının mənfi nəticələrinin belə açıqlamanın ictimai əhəmiyyətli faydalarından artıq olması əsaslı şəkildə ehtimal edildiyi üçün, bu məsələnin hesabatımızda açıqlanmamalı olması qənaətinə gəldiyimiz hallar istisna olmaqla, biz belə məsələləri auditor hesabatımızda təqdim edirik.

15 aprel 2021-ci il

Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2020-ci il tarixində tamamlanan il üzrə | 31 dekabr 2019-cu il tarixində tamamlanan il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 5 | 41,486,186 | 44,958,898 |
| Faiz xərcləri | 5 | (21,195,996) | (18,824,742) |
| **Xalis faiz gəlirləri** | | **20,290,190** | **26,134,156** |
| Gözlənilən kredit zərəri | 6 | (4,769,932) | (375,708) |
| Haqq və komissiya gəlirləri | 7 | 864,763 | 362,778 |
| Haqq və komissiya xərcləri | 8 | (1,168,316) | (1,136,311) |
| Digər gəlirlər | 9 | 969,438 | 929,923 |
| **Əməliyyat gəlirləri** | | **16,186,143** | **25,914,788** |
| İnsan resursları üzrə xərclər | 10 | (4,916,471) | (4,494,707) |
| İnzibati və digər xərclər | 11 | (4,041,605) | (2,725,231) |
| **Vergidən əvvəlki mənfəət** | | **7,228,067** | **18,694,850** |
| Mənfəət vergisi xərci | | – | – |
| **İl üzrə mənfəət və cəmi məcmu gəlir** | | **7,228,067** | **18,694,850** |

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

10-63-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2020-Cİ İL TARİXİNƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il (yenidən təsnifləşdirilmiş*) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 176,502,989 | 136,233,759 |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | 42,542,264 | 23,830,818 |
| Amortizasiya olunmuş dəyərdə borc alətləri | 14 | 110,449,737 | 30,133,538 |
| İpoteka kreditləri | 15 | 1,137,758,725 | 998,158,213 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 16 | 14,636,446 | 16,674,875 |
| Aktivdən istifadə hüququ | 17 | 358,592 | – |
| Maliyyə icarəsi üzrə alınacaq vəsaitlər | 18 | 53,375,052 | – |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu | 19 | 243,635,447 | 200,587,601 |
| Digər aktivlər | 20 | 1,622,422 | 612,469 |
| **CƏMİ AKTİVLƏR** | | **1,780,881,674** | **1,406,231,273** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Buraxılmış qiymətli kağızlar | 21 | 938,387,281 | 730,207,133 |
| Faiz subsidiyaları üzrə nəzərdə tutulmuş vəsait | 22 | 10,991,072 | 17,601,895 |
| Təxirə salınmış gəlirlər | 16 | 3,975,387 | 4,417,035 |
| Gələcək dövrün gəlirləri | 23 | 3,348,767 | 476,635 |
| İcarə öhdəlikləri | 17 | 363,820 | – |
| Digər öhdəliklər | 24 | 3,753,019 | 1,694,314 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **960,819,346** | **754,397,012** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 25 | 637,000,000 | 566,000,000 |
| Əlavə ödənilmiş kapital | 25 | 90,000,000 | – |
| Kapital ehtiyatları | 25 | 85,834,261 | 67,098,867 |
| Bölüşdürülməmiş mənfəət | | 7,228,067 | 18,735,394 |
| **CƏMİ KAPİTAL** | | **820,062,328** | **651,834,261** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,780,881,674** | **1,406,231,273** |

* Burada göstərilmiş müəyyən məbləğlər 2019-cu il üzrə maliyyə hesabatlarına uyğun deyil və aparılmış düzəlişləri əks etdirir, 3 saylı qeydə baxın.

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

10-63-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Alınmış faizlər | | 39,755,696 | 45,225,791 |
| Ödənilmiş faizlər | | (21,291,332) | (17,457,866) |
| Ödənilmiş subsidiya | | (6,065,993) | (2,107,694) |
| Alınmış haqq və komissiyalar | | 1,049,522 | 501,104 |
| Ödənilmiş haqq və komissiyalar | | (1,178,775) | (1,131,080) |
| Digər gəlirlər | | 574,127 | 491,614 |
| İnsan resursları üzrə xərclər | | (5,147,130) | (4,330,167) |
| İnzibati və digər xərclər | | (1,382,229) | (1,280,073) |
| **Əməliyyat aktivlərində (artım)/azalma** | | | |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | (23,000,000) | 27,500,000 |
| İpoteka kreditləri | 15 | (140,346,781) | (112,267,575) |
| Maliyyə icarəsi üzrə alınacaq vəsaitlər | 18 | 4,977,609 | – |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu | 19 | (98,779,373) | (200,587,601) |
| Digər aktivlər | | (520,631) | (96,204) |
| **Əməliyyat öhdəliklərində (azalma)/artım** | | | |
| Digər öhdəliklər | | 3,152,240 | 309,580 |
| Mənfəət vergisi ödənişi | | – | (176,572) |
| **Əməliyyat fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(248,203,050)** | **(265,406,744)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Amortizasiya olunmuş dəyərdə borc alətlərinin alınması | 14 | (116,669,372) | (7,906,566) |
| Amortizasiya olunmuş dəyərdə borc alətlərinin ödənilməsi | 14 | 38,513,815 | 238,218,965 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | 16 | (58,258) | (700,818) |
| **İnvestisiya fəaliyyətindən (istifadə edilən)/daxil olan xalis pul vəsaitləri** | | **(78,213,814)** | **229,611,581** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Dövlət büdcəsindən ayırmalar | 25 | 161,000,000 | 80,000,000 |
| Borc qiymətli kağızların buraxılması | 21 | 250,000,000 | 150,000,000 |
| Ödənilmiş borc qiymətli kağızları | 21 | (43,918,600) | (38,757,998) |
| Borc qiymətli kağızların vaxtından əvvəl geri alışı | 21 | (308,006) | (75,000,000) |
| Ödənilmiş icarə öhdəlikləri | 17 | (87,300) | – |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **366,686,094** | **116,242,002** |

**AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **PUL VƏSAİTLƏRİNDƏ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | | **40,269,230** | **80,446,839** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin əvvəlinə* | 12 | 136,233,759 | 55,786,920 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin sonuna* | 12 | 176,502,989 | 136,233,759 |

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Dövlət ayırmaları | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə qalıq (yenidən hesablanmış*)** | **466,000,000** | **–** | **–** | **47,189,896** | **19,949,515** | **533,139,411** |
| Təsisçinin ayırmaları (Qeyd 25) | – | 20,000,000 | – | – | – | 20,000,000 |
| Dövlət büdcəsindən ayırmalar (Qeyd 25) | – | – | 80,000,000 | – | – | 80,000,000 |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | – | – | – | – | 18,694,850 | 18,694,850 |
| Kapital ehtiyatları | – | – | – | 19,908,971 | (19,908,971) | – |
| Təsisçidən və dövlət büdcəsindən ayırmaların kapitallaşdırılması | 100,000,000 | (20,000,000) | (80,000,000) | – | – | – |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **566,000,000** | **–** | **–** | **67,098,867** | **18,735,394** | **651,834,261** |
| Təsisçinin ayırmaları (Qeyd 25) | – | 90,000,000 | – | – | – | 90,000,000 |
| Dövlət büdcəsindən ayırmalar (Qeyd 25) | – | – | 71,000,000 | – | – | 71,000,000 |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | – | – | – | – | 7,228,067 | 7,228,067 |
| Kapital ehtiyatları | – | – | – | 18,735,394 | (18,735,394) | – |
| Təsisçidən və dövlət büdcəsindən ayırmaların kapitallaşdırılması | 71,000,000 | – | (71,000,000) | – | – | – |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **637,000,000** | **90,000,000** | **–** | **85,834,261** | **7,228,067** | **820,062,328** |

**Rəhbərlik tərəfindən:**

**Fəxri Kazımov**
**İdarə Heyətinin sədri**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

**Fariz Axundov**
**Maliyyə departamentinin direktoru**

15 aprel 2021-ci il
Bakı, Azərbaycan Respublikası

10-63-cü səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.